AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

# SƏRƏNCAM

№ 58

Bakı şəhəri 31 yanvar 2019-cu il

“Magistr-2019” müsabiqəsi haqqında

AMEA-da magistratura təhsilini daha da təkmilləşdirmək, magistrantların elmi nailiyyətlərinin və yaradıcılıq potensialının artırılmasına dəstək vermək, təhsildə və elmdə yüksək nəticələr göstərən, intellekti və bacarığı ilə fərqlənən istedadlı gəncləri həvəsləndirmək məqsədilə:

1. 2019-cu ilin fevral-mart aylarında AMEA-nın magistraturasında təhsil alan tələbələr arasında “Magistr-2019” müsabiqəsi keçirilsin.
2. Müsabiqədə AMEA-nın magistrantlarının iştirakı təmin edilsin.
3. Təhsildə və elmi fəaliyyətdə yüksək nəticələr göstərən 3 magistrant mükafatlandırılsın.
4. Qaliblərin mükafatlandırılması onların hər birinə müvafiq diplom verilməklə aşağıdakı qaydada aparılsın:
   I yer – 1500 manat;
   II yer – 1000 manat;
   III yer – 500 manat.
5. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil baş idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, “Magistr-2019” müsabiqəsinin keçirilməsi ilə bağlı məsələlər həll edilsin.
6. Sərəncamın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARAT PROTOKOL ŞÖBƏSİ